**ADİLOV MUSA İSRAFİL OĞLU**
**(1930-1996)**
**Dilçi**

11 aprel 1930-cu ildə anadan olmuşdur. 1948-ci ildə BDU-nun Filologiya fakültəsinə daxil olmuş, 1953-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1953-1956-cı illərdə BDU-nun aspiraturasında təhsil almışdır. 1956-1967-ci illərdə AMEA Nəsimi adına Dilçilik İnstitutunda, 1967-ci ildən BDU-nun Ümumi dilçilik kafedrasında çalışmışdır.

1958-ci ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1967-ci ildə professor elmi adı almışdır. 1991-1996-cı illərdə Ümumi dilçilik kafedrasına rəhbərlik etmişdir.

Elmi fəaliyyəti dilçiliyin bütün sahələrini əhatə edir. Onun fonetika, leksika, etimologiya, morfologiya, sintaksis, dil tarixi, onomastika, üslubiyyat, nitq mədəniyyəti və s. ilə bağlı elmi əsərləri vardır. Alimin vəfatından sonra çap olunmamış əlyazmaları 4 kitabda nəşr edilmişdir.

22 monoqrafiya, 210-dan çox elmi məqaləsi çap olunmuş, 16 nəfərin elmi işinə rəhbərlik etmişdir.